# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 19 (1658) 15 noyabr 2017 - ci il Qiyməti 50 qəpik


## Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimi keçirilib




**Prezident İlham Əliyev yubiley mərasimində iştirak edib**

Noyabrın 14-də Bakıda, Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyinə həsr edilmiş təntənəli yubiley mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı mərasimdə nitq söylədi.

* * *

Yubiley mərasimi geniş konsert proqramı ilə davam etdi.

## BU SAYIMIZDA




ATU-da IV Beynəlxalq Tibb Konqresi 4

II MÜALİCƏ-PROFİLAKTİKA FAKÜLTƏSİNDƏ TƏDRİSİN VƏZİYYƏTİ VƏ GƏNC MÜTƏXƏSSİSLƏRİN HAZIRLANMASININ YAXŞILAŞDIRILMASI MÜZAKİRƏ OLUNUB 2



ATU-da fakültələr üzrə tələbə dekanları seçildi 4

ATU-nun həkimləri Gəncədə elmi-praktik konfransda məruzə ilə çıxış ediblər 3



“Bağımlılıq müalicələrində diaqnoz, nevroloji yanaşmalar və texnoloji yeniliklər” mövzusuna həsr olunmuş seminar 5

Nəsimi rayon İcra Hakimiyyəti Bayraq Günü ilə bağlı tədbir keçirib 3



İdmançılarımız medal qazanıb 7

Tələbələrimiz bilik yarışında sertifikat alıblar 6



Şəkərli diabet xəstələrinin psixoloji vəziyyəti və xəstəliklə mübarizə yolları müzakirə olunub 6

Pediatrlar üçün bölgələrdə təlimlər keçirilir 7

ATU-da “I Alman-Azərbaycan Radioloji və Neyroradioloji simpoziumu” keçirilib 5





Əməkdaşlarımız Beynəlxalq elmi simpoziumda məruzə ilə çıxış ediblər 6

Təbib

*15 noyabr 2017-ci il*

**Oktyabrın 31-də Böyük Elmi Şuranın növbəti yığıncağı oldu. Yığıncağı açan universitetin tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev gündəlikdə duran məsələlərə keçməzdən öncə tədris hissə müdiri, dosent Nəsimi Qasımovun öz ərizəsi ilə işdən çıxdığını və bu vəzifəyə mikrobiologiya və immunologiya kafedrasının dosenti Samir Cavadovun təyin olunduğunu diqqətə çatdırdı. O, bildirdi ki, Nəsimi müəllim uzun illərdi universitetin təlim- tərbiyə və ictimai- mədəni həyatında fəal iştirak edir. Bu illər ərzində o kollektivin dərin hörmətini qazanıb. Onun keçdiyi həyat yolundan və elmi-pedaqoji fəaliyyətindən qısa məlumat verən S.Əliyev ATU- nun rektoru, professor Gəray Gəraybəylinin imzaladığı "Fəxri fərmanı" da Nəsimi Qasımova təqdim etdi və ona gələcək işlərində uğurlar dilədi.**

BÖYÜK ELMİ ŞURADA




# II MÜALİCƏ-PROFİLAKTİKA FAKÜLTƏSİNDƏ TƏDRİSİN VƏZİYYƏTİ VƏ GƏNC MÜTƏXƏSSİSLƏRİN HAZIRLANMASININ YAXŞILAŞDIRILMASI MÜZAKİRƏ OLUNUB





Prorektor S.Əliyev daha sonra bu günlərdə yubileylərini qeyd edən Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Surxay Hadıyevi 70, ictimai fənlər kafedrasının müdiri, professor Qoşqar Əliyevi 60, qidalanma və kommunal gigiyena kafedrasının müdiri, dosent İbrahim Əhəmədovu isə 70 illikləri münasibətilə rəhbərlik adından təbrik etdi və onların hər birinə universitetin "Fəxri fərman"ını təqdim etdi.

Bundan sonra II müalicə-profilaktika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəylinin "ATU-nun II müalicə-profilaktika fakültəsində tədrisin vəziyyəti və gənc mütəxəssislərin hazırlanmasının yaxşılaşdırılması işində kollektiv qarşısında duran vəzifələr" i barədə məruzəsi dinlənildi.

Müalicə fakültəsində tələbələrin sayının ilbəil artaraq 1973-cü ildə 4500 nəfərə çatdığını və bununla əlaqədar tədris-tərbiyə işlərinin keyfiyyətini yaxşılaşdırmaq məqsədilə 1974-cü ildə II müalicə fakültəsinin təşkil edildiyini vurğulayan İ.Məhərrəmbəyli bildirdi ki, hal-hazırda fakültədə 2173 tələbə təhsil alır.

Onlardan 1872-si Azərbaycan, 157-si rus, 144-ü isə ingilis bölməsində təhsil alırlar. Tələbələrdən 313 nəfəri xarici ölkə vətəndaşlarıdır. Özündə 17 kafedranı və 1 kursu birləşdirən fakültədə 347 nəfər professor-müəllim heyəti çalışır ki, bunlardan 2 nəfəri akademik, 2 nəfəri AMEA-nın müxbir üzvü, 39 nəfəri elmlər doktoru-professor, 105 nəfəri elmlər namizədi-dosent, 103 nəfəri elmlər namizədi-assistent, 68 nəfəri assistent, 24 nəfəri baş müəllim, 4-ü isə müəllimdir. Professor-müəllim vəzifəsində çalışan 251 nəfərin elmi dərəcəsi vardır ki, bu da müəllim heyətinin 72,3%-ni təşkil edir. Təlim-tərbiyə prosesinin uğurla həyata keçirilməsi işində professor-müəllim heyətinə 157 nəfər yardımçı personal kömək edir.

Dekanlığın işinin əsasını təşkil edən tədris prosesinin təkmilləşdirilməsi istiqamətində görülən tədbirlərdən danışan fakültə dekanı bir sıra kafedralarda gələcək mütəxəssislərin peşə hazırlığının yaxşılaşdırılmasına yönəldilmiş ən müasir müayinə metodlarının tətbiq olunduğunu dedi. Kollektivin üzərinə düşən məsuliyyəti önə çəkən məruzəçi qeyd etdi ki, ilk növbədə tələbələrin məsuliyyət hissi artırılmalı, kafedralarda tələbkarlığın və tədrisin keyfiyyətinin yüksəldilməsi təmin edilməlidir.

Tədris ili ərzində dərsə davamiyyətin yaxşılaşdırılması, xüsusən üzrsüz səbəbdən dərs buraxmanın kəskin azldılmasının kollektiv qarşısında duran ən vacib məsələlərdən biri olduğunu deyən İ.Məhərrəmbəyli tədris ilinin imtahan sessiyasının nəticələrini də diqqətə çatdırdı:

"2016/2017-ci tədris ilinin qış imtahan sessiyasında iştirak edən 1609 tələbədən 1527-si semestri akademik borc olmadan başa vurmuşlar ki, bu da ilkin mənimsəmənin 94,9% olduğunu göstərir. Bu göstərici keçən ilin müvafiq dövrü ilə müqayisədə təxminən 1,8% azalmış, keyfiyyət göstəricisi isə 61,5% təşkil etmişdir. Bu da keçən ilin qış sessiyası ilə müqayisədə 1,4% azaldığını göstərir. Göründüyü kimi, imtahan verməli olan 2051 tələbədən 1701 nəfəri tədris planına daxil olan bütün fənlərdən imtahan vermiş, 70 tələbə qeyri-kafi qiymət almış, 280 tələbə isə imtahanlarda iştirak etməmişdir. Beləliklə, yaz imtahan sessiyasının I-VI kurslar üzrə kəmiyyət göstəricisi 96%, keyfiyyət göstəricisi isə 62,1% olmuşdur. İmtahan sessiyasının gedişi ciddi nəzarətə götürülmüş, xırda narazılıqlar operativ şəkildə həll olunmuşdur."

Sözünə davam edən natiq dedi ki, tədris prosesi il boyu müntəzəm olaraq kafedra iclaslarında təhlil olunmaqla geniş müzakirə edilmiş və onun təkmilləşdirilməsi üçün müxtəlif tədbirlər həyata keçirilmiş və tövsiyyələr hazırlanmışdır. Tələbələrin gələcək həyatında TEC-in mühüm rolunu qeyd edən dekan bildirdi ki, hazırda 100-dən çox tələbə elmi dərnəklərdə çalışır. Cari ildə TEC-in konfransında tələbələrin 30- dan çox məruzəsi dinlənilmişdir. Onlardan 6-sının məruzəsi IV Beynəlxalq Tibb Konqresinə təqdim edilmişdir: Tələbələrimizdən bir qrupu Rusiya Federasiyasının Mahaçqala şəhərində keçirilən "Ümumrusiya gənc alimləri birlik forumu"nda elmi məruzə ilə çıxış etmiş və yekun dəyərləndirməyə əsasən bir tələbəmiz I yerə layiq görülmüş, digər biri isə IV dərəcəli diploma təltif edilmişdir. Bundan əlavə bir tələbəmiz Avstriyanın Qrats şəhərində keçirilən V Beynəlxalq Tələbə Konqresində məruzə ilə çıxış edib, sertifikat almışdır.

Fakültənin tədris-metodik, elmi, tərbiyəvi işləri haqqında da şura üzvlərinə ətraflı məlumat verən dekan bundan sonra da bütün bilik və bacarıqlarını yüksək ixtisaslı, mənəvi cəhətdən saf, milli dövlətçiliyimizə sədaqətlə xidmət edən mütəxəssislərin hazırlanmasına sərf edəcəklərini söylədi.

Məruzə ətrafında çıxış edən travmatologiya kafedrasının müdiri, professor Əhməd Əhmədzadə, ictimai fənlər kafedrasının müdiri, professor Qoşqar Əliyev, patoloji anatomiya kafedrasının müdiri, professor Ədalət Həsənov və ümumi cərrahiyyə və anestoziologiya kafedrasının müdiri, professor Elçin Ağayev çıxış edərək hesabatı qənaətbəxş qiymətləndirməklə yanaşı, bir sıra təklif və rəylərini də bildirdilər.

Müzakirələrə yekun vuran professor S.Əliyev dedi: "İsrail müəllim fakültənin fəaliyyəti ilə bağlı ətraflı məlumat verdi. O, işində məsuliyyətlə çalışan dekanlarımızdan biridir. Kafedralarda yüksək bacarıqlı mütəxəssislərimiz var. Biz bunlarla birlikdə işimizi hərtərəfli qaydasına qoymalıyıq. Əgər kimsə dekana ağıllı bir təklif deyirsə, biz ondan yararlanmalıyıq. Mən də hesab edirəm ki, fakültənin fəaliyyəti qənaətbəxşdir."

Dərslərdə tənəffüsün azaldılması məsələsinin müzakirəyə ehtiyac olunmadığnı bildirən S.Əliyev tələbəyə təkcə diplom yox, yüksək bilik verməyi tövsiyə etdi. O,vurğuladı ki, Boloniya sistemində biliyə önəm verilməsinin bir sıra faktorları özünə yer tapıb. Tələbələr biliyə cəlb olunmalı, tədris yüksək səviyyədə təşkil edilməli və innovativ tədbirlər tətbiq olunmalıdır. Bütün bunlar tələblərin bilik səviyyəsinin artmasına kömək edə bilər. Sözünə davam edən prorektor Prezident təqaüdçülərinə xüsusi nəzarətin olunduğunu bildirərək onlardan istifadə edib, gələcəkdə savadlı kadrlarımızın sayını artıra biləcəyimizi dedi: "Bizdə təhsil alan tələbələr dövlət və pullu ödənişlə oxuyurlar. Bunların gələcəkdə bərabərləşdirilməsi məqsədəuyğun olardı. Həmçinin valideyn dəstəyindən məhrum olan uşaqların sosial müdafiəsini gücləndirmək məqsədilə universitetdə büdcədənkənar vəsait hesabına təqaüd forması yaradılmasını istərdim. Bir sözlə gələcək iclaslarda bu problemlər barədə geniş müzakirələrin aparılması ümumi işimizin xeyrinədir."

Müxtəlif məsələlərin müzakirəsinə də yer ayıran Böyük Elmi Şura uşaq cərrahiyyəsi kafedrasının müdiri, professor Çingiz Quliyevin kafedranın məsləhətçi professoru vəzifəsinə keçməsi üçün etdiyi müraciətini və əməkdaşların əksəriyyətinin korporotiv nömrələrlə təmin olunması ilə bağlı təklifini də dəstəklədi.

Böyük Elmi Şura müsabiqə məsələlərini həll etməklə öz işini başa vurdu.

**Mənsur ƏLƏKBƏRLİ**

**Fotolar Cənnətalı Çingizindir**

# Nəsimi rayon İcra Hakimiyyəti Bayraq Günü ilə bağlı tədbir keçirib

**Nəsimi rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Nizami Kino Mərkəzində 9 noyabr- Bayraq Günü ilə əlaqədar «Bayrağımız – kimliyimiz, mənliyimiz, qürür mənbəyimizdir» adlı təntənəli tədbir keçirilib.**

Tədbirdə Nəsimi rayon İcra Hakimiyyətinin rəsmiləri, millət vəkilləri, rayonda fəaliyyət göstərən dövlət orqanlarının əməkdaşları, gənclər və KİV nümayəndələri olublar. Qeyd edək ki, tədbirdə həmçinin ATU-nun rektoru, professor Gəray Gəraybəyli də iştirak edib.

Öncə səhnəyə Azərbaycanın Dövlət Bayrağı gətirilib.




Daha sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə bildirilib ki, Azərbaycan bayrağında xalqımızın keçmişi, bu günü, gələcəyi öz əksini tapıb. Qeyd olunub ki, bu gün Azərbaycan bayrağının fəxarətlə dalğalanması böyük əziyyətlər hesabına başa gəlib. Vurğulanıb ki, Ümummilli Lider Heydər Əliyev tərəfindən ilk dəfə Naxçıvan Muxtar Respublikasında 1990-cı il noyabrın 17-də Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Muxtar Respublikanın Dövlət Bayrağı kimi rəsmən təsdiq edilib.



Təntənəli mərasimdə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra azərbaycanlı aktyor Ağalar Bayramov vətənpərvərlik ruhunda şeirlər səsləndirib.

Tədbir bədii hissə ilə davam edib.

# Bayrağımız milli qürurumuzdur

**Dövlət Bayraq Günü münasibətilə Azərbaycan Tibb Universitetinin ictimai fənlər kafedrasında "Bayrağımız milli qürurumuzdur" mövzusunda TEC konfransı keçirilib.**

Konfransın əvvəlində İctimai fənlər kafedrasının müdiri, professor Qoşqar Əliyev giriş sözü ilə çıxış edərək Azərbaycanın müstəqillik tarixi haqqında tələbələrə geniş məlumat verdi. Qeyd etdi ki, müstəqil dövlətin atributları və simvolların arasında dövlət bayrağı böyük əhəmiyyət daşıyır. Professor xatırlatdı ki, hələ 1990-cı ilin noyabrında Ulu öndər Heydər Əliyev Naxçıvanda olarkən ilk dəfə orada Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözləri götürülməsi və üçrəngli bayrağın dövlət bayrağı kimi qəbul edilməsi





təklifini irəli sürmüşdü. Sonradan 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Milli Məclisi üçrəngli bayrağı dövlət bayrağı elan etdi.

Sonra II müalicə-profilaktika fakültəsinin dekanı dosent İsrail Məhərrəmbəyli çıxışında bildirdi ki, gənc nəsildə dövlətin əsas rəmzlərinə, o cümlədən bayrağa hörmət hissi aşılanmalıdır. Hər kəs dövlət atributlarının müstəqillik tarixində mühüm rol oynadığını bilməlidir.

İctimai fənlər kafedrasının baş müəllimi, t.ü.f.d. Aidə Təhməzova TEC konfransını açıq elan edərək konfransa işində uğurlar arzuladı.

Qeyd edək ki, tələbələr Fəridə Primova (Qr.317 a 12), Anaxanım Məmmədova (Qr.317 a 8), Ayner Abdullayeva (Qr.317 a 11), Nübar Dəmirova (Qr.317 a 7), Könül Aslanova (Qr.317 a 11), Günel Tamarova (Qr.317 a 7) və başqalarının çıxışları konfrans iştirakçıları tərəfindən rəğbətlə qarşılandı. Bu tələbələr əsasən baş müəllim, t.ü.f.d. L.Talışinski, baş müəllim, t.ü.f.d. A.Təhməzovanın, baş müəllim, f.ü.f.d. F.Qəniyevanın rəhbərliyi altında hazırlaşıblar.

# Tibbi Şuranın genişləndirilmiş iclası keçirilib

**Noyabrın 7-də Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında Tibbi Şuranın genişləndirilmiş (37 saylı) iclası keçirilib.**



İclası giriş sözü ilə açan direktorun müavini Adil Nuriyev klinikanın oktyabr ayında müalicə-diaqnostik fəaliyyəti haqqındakı hesabatı şura üzvlərinin diqqətinə çatdırıb.

Oktyabr ayı ərzində klinikanın şöbələrində stasionar və gündüz rejimdə müalicə alan pasiyentlər barədə ətraflı məlumat verən A.Nuriyev sentyabrla müqayisədə oktyabr ayı ərzində xəstə qəbulunun artdığını bildirib.

A.Nuriyev qeyd edib ki, ən çox xəstə uşaq allerqologiya pulmonologiya, uşaq endokrinologiya, hematologiya, uşaq kardiorevmatologiya şöbələrində qəbul edilib. O, eyni zamanda ambulator vərəqələrin yazılması və son klinik diaqnozu dəqiqləşdirmək üçün labarotar və instrumental müayinələrin vacibliyindən də danışıb.

Daha sonra direktorun klinik işlər üzrə müavini Samir Allahverdiyev çıxış edib.

O, cari məsələlər və görülən işlərlə bağlı şura üzvlərinə məlumat verib.

Qeyd edək ki, iclasda ATU-nun elmi işlər üzrə prorektoru dosent Rauf Bəylərov da iştirak edib.

# ATU-nun həkimləri Gəncədə elmi-praktik konfransda məruzə ilə çıxış ediblər

**Gəncədə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və Kəlbəcər Rayon Mərkəzi Xəstəxanasının təşkilatçılığı ilə Dövlət Bayrağı Gününə həsr olunmuş elmi-praktik konfrans keçirilib.**

Kəlbəcər rayonundan olan məcburi köçkün xəstələrin tibbi müayinələrini həyata keçiriblər.

Konfransda Səhiyyə Nazirliyinin tibbi yardımın təşkili şöbəsinin məsləhətçisi Aynurə Zeynalova və Mərkəzi Neftçilər Xəstəxanasının əməkdaşları da məruzələrlə çıxış ediblər.



"Səhiyyənin aktual problemləri: pediatrik, psixiatrik, nevroloji, cərrahi, anesteziolоji aspektləri" mövzusunda elmi-praktik konfrans keçirilib. Azərbaycan Tibb Universitetinin əməkdaşları-psixiatriya kafedrasının assistenti İkram Rüstəmov və I uşaq xəstəlikləri kafedrasının assistenti Nigar Sədiyeva səhiyyə orqanlarına dəstək məqsədilə konfransda müxtəlif mövzularda məruzələr ediblər. Həmçinin



Qeyd edək ki, tədbirdə Şəki RMX-nın baş həkimi, Kəlbəcər RMX-nın, Sumqayıt və Gəncə şəhəri tibb müəssisələrinin həkimləri də iştirak ediblər.

*ATU-nun mətbuat xidməti*

# ATU-da IV Beynəlxalq Tibb Konqresi

**Noyabrın 2-də Azərbaycan Tibb Universitetində öz işinə başlayan Tələbələr və Gənc Həkimlərin IV Beynəlxalq Tibb Konqresinin iştirakçıları əvvəlcə universitetin foyesində qoyulmuş ümummilli lider Heydər Əliyevin büstünü ziyarət ediblər. Bundan sonra konqresin təntənəli açılışı olub. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib və tədbirin aparıcıları Səmra Bağırlı və Sərxan Həsənli konqresin açılış günündə dünyanın müxtəlif ölkələrdən gələn nümayəndələri, ATU-nun professor-müəllim heyətini və tələbələrini salamlamaqdan məmnunluq duyduqlarını söyləyiblər.**




Təbrik üçün ilk söz ATU-nun rektoru, professor Gəray Gəraybəyliyə verilib.

Açılış nitqində tədbir iştirakçılarını IV Beynəlxalq Tibb Konqresinin təşkilat komitəsi adından salamlayan rektor qeyd edib ki, hər bir ali məktəbin əsas vəzifələrindən biri istedadlı kadrların yetişdirilməsidir və bu baxımdan keçirilən tibbi konqreslərin əhəmiyyəti çox böyükdür: "Uzun illərdir ki, dinamik surətdə inkişaf edən ölkəmiz elm, təhsil, tibb və idman sahələrində davamlı olaraq beynəlxalq tədbirlərə ev sahibliyi edir. Dövlətimizin başçısı İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində dinamik surətdə inkişaf edən ölkəmizə beynəlxalq maraq artmaqdadır və bu maraq hər il Azərbaycan Tibb Universitetində keçirilən konqreslərdə iştirak etmək istəyənlərin sayında da özünü göstərir. Biz bu il də ənənəvi olaraq Beynəlxalq Tibb Konqres keçiririk. Builki konqres əvvəlkilərdən bir qədər fərqlidir. Konqres ərəfəsində Türkiyənin İstanbul Universitetinin tibb fakültəsinin Endoskopik Laporaskopik Cərrahlar Dərnəyinin bir





qrup professor-müəllim heyətinin dəstəyi ilə burada laporaskopik cərrahiyyə kursu təşkil edilmişdir".

Bu kursun təşkilinə görə professor Cavid Avcı başda olmaqla bütün heyət üzvlərinə dərin təşəkkürünü bildirən universitetin rəhbəri builki konqresdə 554 nəfərin rəsmi qeydiyyatdan keçdiyini vurğulayıb. Ölkəmizdə fəaliyyət göstərən bir çox diaqnostik mərkəzlərdən və xəstəxanalardan, o cümlədən Naxçıvan Dövlət Universitetinin tibb fakültəsindən, Şirvan, Bərdə, Quba, Xaçmaz, Biləsuvardan bir qrup həkimin bugünkü konqresə qatıldığını diqqətə çatdıran rektor Almaniya, Rusiya, Türkiyə, Özbəkistan, İran, Amerika Birləşmiş Ştatları, Meksika, Litva, Sloveniya, Mərakeş, Albaniya, Nigeriya və digər ölkələrdən olan tibb mütəxəssislərinin, tələbələrin konqresdə iştirakını universitetimizin beynəlxalq aləmdə artan nüfuzunun göstəricisi kimi dəyərləndirib.

"Belə məşhur bir deyim var ki, bütün elmlərin açarı sual işarəsidir" – deyən rektor bu sualları cavablandırmaq üçün elmi müzakirələrin aparılmasının vacibliyinə toxunub və konqresə təqdim olunan elmi məqalələr və posterlərlərin maraqla izlənəcəyinə, ən başlıcası isə heç kəsin məğlub olmayacağına əminliyini bildirərək konqresin işinə uğurlar arzulayıb.

Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edən türkiyəli professor, Laporaskopik Dərnəyinin prezidenti Cavid Avcı tələbələrin gələcəkdə həm savadlı həkim, həm də bir tədqiqatçı kimi formalaşmasında bu cür konqreslərin əhəmiyyətindən danışıb.

Millət vəkili Qənirə Paşayeva da konqresdə çıxış edərək bu doğma məkanda çox gözəl hisslər keçirdiyini deyib: "Yəqin ki, insan üçün ən çətin işlərdən biri də öz məkanında çıxış etməkdir. Bura mənim öz ocağımdır, çünki ATU-nun məzunuyam. Bura gələndə ürəyimdən iki təşəkkür keçdi: biri anama, digəri isə buradan ayrılmamaq üçün məni razı salan müəllimlərimə. Çünki mən Azərbaycan Tibb Universitetində təhsil alarkən televiziyada işləyirdim və universiteti yarımçıq qoymaq barədə düşünürdüm. Amma anam və bir çox dəyərli müəllimlərim məni bu fikirdən daşındırdı. Sizlərin də belə həvəsli, bacarıqlı olduğunuzu görmək məni sevindirir".

Prezidentimizin tibb sahəsinə hər zaman həssaslıqla yanaşdığını bildirən millət vəkili Milli Məclisdə fəaliyyət göstərən səhiyyə komitəsinin bütün tibb işçilərinin qayğısını çəkməyə hazır olduğunu da vurğulayıb.

İ.M.Seçenov adına I Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru, professor Əziz Əliyev də konqresin işinə uğurlar arzulayaraq "Onkologiyada təcrübəmiz və nailiyyətlərimiz" mövzusunda mühazirə oxuyub.

Çıxışlar zamanı ölkələr arasında elmi əlaqələrin qurulmasında, gənc həkimlərin elmi tədqiqatlara cəlb olunmasında və onlarda diskussiya mədəniyyətinin formalaşmasında belə tədbirlərin böyük əhəmiyyət daşıdığı vurğulanıb. Azərbaycan Tibb Universitetində gənc tədqiqatçıların yetişdirilməsində TEC-in rəhbəri, professor Amaliya xanım Əyyubovanın və TEC-in sədri Müşfiq Həsənovun xidmətləri də yüksək qiymətləndirilib.

İki gün davam edən Tələbələrin və Gənc Həkimlərin IV Beynəlxalq Tibb Konqresi öz işini plenar və bölmə iclaslarında davam etdirib. Tibbin müxtəlif sahələrinə dair həm azərbaycanlı, həm də xarici mütəxəssislərin mühazirələri dinlənilib. Onkologiya, pediatriya, urologiya, oftalmologiya, ginekologiyada rast gələnən xəstəliklər və onların yeni müalicə metodlarına dair təcrübə mübadiləsi aparılıb.

Noyabrın 3-də universitetin elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov konqresi bağlı elan edərək rektorun beynəlxalq tədbirin gedişatını diqqətdə saxladığını xatırladıb. Plenar iclaslarda tibbin bütün sahələrini əhatə edən çox maraqlı məruzələrin dinlənildiyini söyləyən Rauf Bəylərov təşkilat komitəsi adından tədqiqatçı tələbələri, onların elmi rəhbərlərini, valideynlərini bir daha təbrik edib, bütün konqres iştirakçılarına, qonaqlara bu mötəbər tədbirə qatıldıqları üçün hörmət və ehtiramını bildirib.

Sonda qaliblər diplom və sertifikatlarla təltif olunublar.

Tədbirin açılışının və bağlanışının bədii hissə ilə müşayiət olunması iş-tirakçılarda həm də bir bayram əhval-ruhiyyəsi yaradıb.

Qeyd edək ki, hər il ənənəvi olaraq Azərbaycan Tibb Universitetində Tələbələrin və Gənc Həkimlərin Beynəlxalq Tibb Konqresi keçirilir. I Beynəlxalq Konqres 2014-cü ilin mayında ulu öndər Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuşdu. Həmin konqresə 20-dən artıq xarici universitetin təmsilçiləri qatılmışdı. 2015-ci ilin noyabrında keçirilən II Beynəlxalq Tibb Konqresində 30-dan artıq universitetin nümayəndələri iştirak etmişdi. 2016-cı ildə keçirilən III Beynəlxalq Tibb Konqresində isə 450-dən artıq nümayəndə rəsmi qeydiyyatdan keçmişdir ki, bunlardan da 104 nəfəri ayrı-ayrı xarici universitetləri təmsil edirdi.

**Arif MƏMMƏDLİ**

# Ölkədə sabit epidemioloji vəziyyət müşahidə olunur

**Noyabrın 8-də Azərbaycan Tibb Universitetində epidemioloji vəziyyətə həsr olunmuş brifinq keçirilib.**



Tədbirdə çıxış edən Səhiyyə Nazirliyinin baş epidemioloqu, ATU-nun epidemiologiya kafedrasının müdiri, professor İbadulla Ağayev ölkədə hazırkı epidemioloji vəziyyət barədə jurnalistlərə məlumat verib.

Professor deyib: "Hazırda respublikamızda nə qrip, nə də qripəbənzər kəskin respirator xəstəliklərin epidemiyası müşahidə edilmir. Belə olduğu təqdirdə hansısa xəstəliklə kütləvi mübarizə aparmaq haqqında söz ola bilməz. Əgər 1000 nəfərdən 10-da qrip varsa bu adi haldır. Havaların soyuması ilə əlaqədar bütün dünyada olduğu kimi ölkəmizdə də qriplə bağlı problemlər meydana çıxır. Bunun epidemioloji həddi keçməməsi səbəbindən əhali kütləvi vaksinasiya olunmur. Lakin özəl klinikalarda qrip əleyhinə peyvəndlənmə aparılır. Hər bir vətəndaş istəyə bağlı öz təşəbbüsü ilə vaksinasiya oluna bilər".

# ATU-da fakültələr üzrə tələbə dekanları seçildi

**Azərbaycan Tibb Universitetində (ATU) fakültələr üzrə tələbə dekanlarının seçimi başa çatıb.**



ATU-nun rektoru, professor Gəray Gəraybəyli tələbə dekanı seçilmiş gəncləri təbrik edib. Rektor bildirib ki, tələbə dekanları ATU-nun böyük elmi şuralarında iştirak edəcək, tələbələrin istək və təkliflərini rəhbərliklə bölüşəcəklər: "Siz qrup nümayəndələrinizin, fakültədəki tələbələrin rəğbətini qazanaraq, bu ada layiq görülmüsünüz. Sizin əsas işiniz tələbələr arasında olan şikayət və təklifləri rəhbərliyə, dekanlara ötürməkdən ibarətdir. Sizin fəal əməyiniz sayəsində biz bu sahədə daha aktiv işləməli, bir-birimizə kömək etməliyik".

Rektor G.Gəraybəyli ATU-da təhsil alan tələbələrə daim diqqət və qayğı göstərməyə çalışdığını dedi. Onların buradakı həyatı, problemləri, dərs prosesində yaranan məsələlərlə bağlı fikirlərini hər zaman dinləməyə hazır olduğunu vurğuladı. Rektor gənclərdən daha aktiv fəaliyyət gözlədiyini söylədi: "Universitetdə mədəni, sosial aksiyalar, sərgilər və digər tədbirlər keçirə bilərsiniz. Bu istiqamətdə sizdən maraqlı təkliflər gözləyirəm. Bundan başqa, dəfələrlə tələbələr mənə hansısa dərsliklə bağlı şikayətlərini bildiriblər. Sizin işiniz məhz bu şikayətləri araşdırmaq və bu kimi məsələlərin həllində bizə yardım etməkdir".

Daha sonra rektor G.Gəraybəyli tələbə dekanlığının əsasnaməsi ilə tələbə dekanlarını və dekanları tanış etdi.

Tələbə dekanların siyahısı:

I müalicə-profilaktika fakültəsinin tələbə dekanı – Əhmədli Əziz (II kurs);

II müalicə-profilaktika fakültəsinin tələbə dekanı – Alimli Məhərrəm (V kurs);

Stomatologiya fakültəsinin tələbə dekanı – Kərimova Nigar (IV kurs);

Əczaçılıq fakültəsinin tələbə dekanı – Abbaszadə Xəyalə (II kurs);

İctimai səhiyyə fakültəsinin tələbə dekanı – Ağazadə Xədicə (II kurs);

Hərbi tibb fakültəsinin tələbə dekanı – Quliyev Kamil (III kurs).

ATU-nun mətbuat xidməti

# GERONTOLOGİYA AZƏRBAYCAN TİBBİNDƏ YENİ BİR SAHƏDİR

**Beynəlxalq əlaqələri ildən-ilə genişlənən Azərbaycan Tibb Universitetinin əməkdaşları öz bilik və bacarıqlarını artırmaq, daha böyük təcrübə qazanmaq üçün şəxsi təşəbbüslə də çıxış edir, yaxın və uzaq xaricdə yerləşən məşhur elmi-tədqiqat mərkəzlərinə üz tutaraq hələ ölkəmizdə kifayət qədər öyrənilməyən sahələrə xüsusi maraq göstərirlər.**

II daxili xəstəliklər kafedrasının assistenti, tibb üzrə fəlsəfə doktoru Lamiyə Quliyeva da belə bir təşəbbüs göstərərək, Azərbaycan Tibb Universitetinin təqdimatı əsasında Kiyev şəhərində yerləşən Ukraynanın D.F.Çebotaryov adına Milli Tibb Elmləri Akademiyasının Gerontologiya İnstitutunun direktoru akademik Vladislav Bezrukova müraciət edib.

Görkəmli akademik universitetimizin əməkdaşını kollektivə təqdim edərək, gerontologiya elminin müxtəlif sahələri ilə tanış olmaq məqsədilə ona əlverişli şərait yaradıb. Lamiyə xanım burada qocalıq və uzun ömürlülük problemləri, yaşlı adamlarda ürək, qan-damar sis-



teminin inkişafı və müalicə tədbirləri barədə yeniliklərlə tanış olub. Eyni zamanda qocalma və ürək, qan-damar sisteminin ayrılmaz əlaqəsi, müxtəlif dərman preparatlarının perspektiv müalicəsi, müalicədə kompleks yanaşmaya dair yeni bilgilər əldə edib.

Məlumat üçün bildirək ki, Gerontologiya İnstitutunun elmi işləri üç istiqamətdə: qocalığın bioloji qocalma xüsusiyyətləri, kliniki gerontologiya və geriatriya, sosial gerontologiya və gerogigiyena üzrə aparılır.

Lamiyə Quliyeva Gerontologiya İnstitutunun digər bölmələrinin işi ilə də yaxından tanış olaraq yaşlı adamların müalicə prinsiplərinin xüsusiyyətləri, təqaüd yaşlı şəxslərdə sağlamlığın qorunması, kompleks yanaşma və yaşlı əhaliyə tibbi qulluq, yaşlı və qoca insanlarda ödem halının müalicəsinin yeni metodlarını ilə tanış olub.

Aparılan çoxsaylı kliniki və eksperimental işlərin Ukrayna Elmlər Akademiyasının Gerontologiya İnstitutunda tədqiqi göstərir ki, yaşadolmada müxtəlif üzvlərin və toxumaların hissiyatı dəyişməklə müxtəlif kimyəvi-humoral dəyişikliklər baş verir.

İnstitutun 9 müalicə şöbəsi, o cümlədən tənəffüs üzvləri, qan-damar sistemi, əsəb sistemi şöbələri, bundan əlavə kliniki elmi tədqiqat laboratoriyası, poliklinika məsləhəti və müasir diaqnostika reablitasiya şöbələri vardır.

Əsasən diqqəti cəlb edən müayinə üsullarından baş beyin, qan dövranının ultrasəs müayinəsi, insanın bioloji yaş dövrünün qiymətləndirilməsi, lazer və dopler floraometriya üsulları ilə müayinə üsullarını qeyd etmək olar.

Gerontologiya İnstitutu qocalma, onun kompleks müalicəsi, profilaktik tədbirlərinin aparılması istiqamətində də böyük işlər görüb.

Vaxtından əvvəl qocalma tibb elminin qarşısında duran problemlərdən biri olmaqla müasir funksional diaqnostika və laborator müayinə metodlarından istifadə etməklə yeni müalicə-profilaktik tədbirlərin aparılmasını tələb edir.

Qeyd edək ki, gerontologiya sahəsi Azərbaycan tibbində yeni bir sahədir və bu sahədə yenilikləri öyrənməsi ilə əlaqədar Ukraynanın D.F.Çebotaryov adına Gerontologiya İnstitutu tərəfindən Lamiyə Quliyevaya xüsusi sertifikat verilib.

Yuxarıda göstərilən sahələrin Azərbaycan səhiyyəsində yenilik olması və Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında gerontologiya şöbəsinin yaradılması, assistent Lamiyə Quliyevanın bu işləri araşdırması, klinikada tətbiq etmə istəyi böyük maraq və diqqət doğurur.

**Qabil ABDULLAYEV**

## "Bağımlılıq müalicələrində diaqnoz, nevroloji yanaşmalar və texnoloji yeniliklər" mövzusuna həsr olunmuş seminar

**Noyabrın 8-də Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında ATU-nun və HMH Baku, Medi Globalın birlikdə təşkil etdiyi, NP İstanbul Beyin Xəstəxanasının "Bağımlılıq müalicələrində diaqnoz, bağımlılıq müalicələrində nevroloji yanaşmalar və texnoloji yeniliklər" mövzusuna həsr olunmuş seminar keçirildi.**

Üsküdar Universitetinin rektoru, professor Nevzat Tarhan çıxında bu mövzuda olan seminarların önəmindən bəhs etdi: "Bu problemlərin böyüməməsi üçün bir çox işlər görməliyik. Çünki asılılıq çox çətin bir xəstəlikdir, bir çox digər xəstəliklərə yol açır. Müalicəsi çətin və uzun olan bir prosesdir. Bu seminarda asılılıq xəstəliyi ilə bağlı fikirlərimizi və



Klinikanın direktoru, professor Surxay Hadıyev çıxışında bildirdi ki, bu tədbir İstanbul Üsküdar Universiteti və Medi Global şirkətinin klinikada keçirəcəyi seminara həsr olunub: "Bu günki seminar psixiatriya sahəsinə, dünyada geniş





yayılmış zərərli alışqanlıqlara həsr olunub. Bu xəstəliyin yaranma səbəbləri və müalicə üsulları barədə burada danışacağıq. Seminarda Üsküdar Universitetinin rektoru, həkimləri iştirak edir. Hər kəsə işlərində uğurlar diləyirəm".

təcrübələrimizi bölüşəcəyik. İnanıram ki, xəstəliyin qarşısının alınmasında bu kimi seminarların faydası böyükdür".

Daha sonra seminar işinə mütəxəssislərin çıxışları ilə davam etdi. Asif Kəngərli "Bağımlılıq müalicələrinə Azərbaycanda yanaşma", Araz Əliquliyev "Azərbaycanda bağımlılıq statistikası", Nesin Dilbaz "Bağımlılıq nədir və müalicəsi" mövzusunda məruzə oxudular.

Seminarın sonunda iştirakçılara sertifikatlar təqdim olundu.

## ATU-da "I Alman-Azərbaycan Radioloji və Neyroradioloji simpoziumu" keçirilib

**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında "1-ci Alman-Azərbaycan Radioloji və Neyroradioloji simpoziumu" keçirilib.**

ATU-nun Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Surxay Hadıyev simpoziumu açıq elan




edib və hər kəsə uğurlar diləyib: "Cənab prezident Azərbaycanın səhiyyə sahəsinə daim diqqət və qayğı göstərir. Bu qayğı nəticəsində səhiyyəmiz çox inkişaf edib, xeyli



müsbət addımlar atılır. Bu simpoziumun keçirilməsi də tibb sahəsi üçün olduqca faydalıdır. Bu gün burada həqiqətən də öz sahəsində tanınan, bilikli şəxslər bir araya gəlib. Simpoziuma işinə uğurlar diləyirəm".

Daha sonra ATU-nun Neyrocərrahiyyə kafedrasının müdiri, professor Sabir Etibarlı çıxış edərək, simpoziumun önündə duran məsələlər haqqında məlumat verib.

Simpoziumda Ruslan Əliyev "Endovaskulyar anevrizmalarda müalicə növləri", Coşqun Məmmədov "Stroke xəstələrdə endovaskulyar terapiya", t.e.d. Nuran Abdullayev "Tumor xəstələrinin Staging-ində müasir təkminləşmələr - müasir diaqnostika", Volker Maus "Neyroradioloji diaqnostika metodları və əhatəli Stroke diaqnostikası", professor Anastasios Mlotsaris "Alman Stroke Mərkəzi modeli və təşkili" və s. mövzularda mühazirələrlə çıxış ediblər.

ATU-nun mətbuat xidməti

# Tələbələrimiz bilik yarışında sertifikat alıblar

**İctimai fənlər kafedrasının təşkilatçılığı ilə ATU-nun bir qrup tələbəsi Heydər Əliyev Mərkəzində bilik yarışında iştirak etmişlər.**




Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyatının, çoxşaxəli fəaliyyətinin və irsinin öyrənilməsinə həsr olunan və Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin tələbələri arasında təşkil olunan bu yarışda iştirak edən tələbələrimiz: Aslan Emil Aslan o. qr.360 a; Səfərli Ləman Tahir q. qr.370 c; Mirbabayev Mircavad Sabutay qr.782 b; Mənsimzadə Nuranə Kamil q. qr.370 c; Əliyev Ramin Əfrail qr.317 a 7; Əzizli Bəyim Şahin q. qr.617 a 5; Mustafazadə Rəsul Samir o. qr.717 r 1; Cəfərov İlqar Bayram o. qr.617 r 1

Komandamız nailiyyətlərinə görə yarışın sonunda sertifikatlara layiq görüldülər.

# Əməkdaşlarımız Beynəlxalq elmi simpoziumda məruzə ilə çıxış ediblər

**Pakistan İslam Respublikasının Karaçi Universitetində VI Beynəlxalq "Molekulyar Təbabət və Dərman Araşdırmaları" elmi simpoziumu (MMDR-6) keçirilib. Simpoziumda Azərbaycan Tibb Universitetini Patoloji anatomiya kafedrasının baş müəllimi, t.ü.f.d. Müşfiq Orucov və Bioloji kimya kafedrasının kiçik elmi işçisi Hafiz Osmanov təmsil edib.**

Simpoziumda dünyanın 23 ölkəsinin aparıcı elm mərkəzlərindən və ali təhsil ocaqlarından alimlər öz elmi-tədqiqat işlərinin nəticələri haqqında məruzə ilə çıxış ediblər. ATU əməkdaşlarının məruzələri də tədbir iştirakçılarının böyük marağına səbəb olub.

Tədbir UNESCO, İƏT-in Elm Fondu və Karaçi Universitetinin Beynəlxalq Kimya və Biologiya Elmləri Mərkəzi (ICCBS) tərəfindən təşkil edilib. Simpozium çərçivəsində "Neoplaziyanın əsasları və karsinogenez", "Elmi-tədqiqat nəticələrinin bioinformativ işlənilməsi" və "NMR spektroskopiyanın molekulyar biologiyada və dərman araşdırmalarında tətbiqi" mövzularında seminarlar da keçirilib.



# Uşaqlarda boy qısalığı bir sıra xəstəliklərin göstəricisi ola bilər

**Çox valideynlərin "hələ balacadır, uzanacaq" dediyi boy qısalığı əslində bir xəstəlik deyil, bir çox xəstəliklərin göstəricisi ola bilər. Bu səbəbdən inkişafın hansısa dövründə uşağının öz yaşıdlarından boy və ya çəkidə geri qalması müşahidə olunarsa, həkimə müraciət etmək mütləqdir.**



Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının II uşaq xəstəlikləri kafedrasının pediatrı, endokrinoloq Günay Cəbrayılova bu gün bir çox valideynləri narahat edən bu xəstəliklə bağlı bəzi məqamlara aydınlıq gətirib.

Həkim deyib: "Uşaqlıq dövrünün ən böyük xüsusiyyəti, davamlı böyümə prosesidir. Təəssüflər olsun ki, hər bir uşaqda sağlam böyümə və inkişaf prosesi müşahidə olunmur. İstər xəstəliklərə, istərsə də qida çatışmazlığı ilə əlaqədar olaraq uşağın inkişafının dayanması, ən çox boy uzanmasına təsir göstərir. Uşaqlıq dövrü böyümədə dayanma və ya boy qısalığı hansısa xəstəliyin ilkin əlaməti ola bilər. Genetik, konstitusional boy qısalıqları, cinsi inkişafın gecikməsi, skelet sistemi xəstəlikləri, uşağın doğulduğu çəkinin aşağı olması, qidalanma pozuntuları, ürək, böyrək, qan xəstəlikləri kimi xroniki problemlər, uzun müddətli dərman istifadəsi, Turner sindromu, qalxanabənzər vəzin hormon çatmazlığı ilə gedən xəstəliklər, böyümə hormonu çatışmazlığı və uşağın az qayğı və ya sevgi görməsi inkişafa təsir edən səbəblərdəndir. Turner sindromunun bu gün daha çox qız analarını narahat edir. Bu xəstəlik hər 2500 qız uşağından birində təsadüf edilir. Xəstəliyin başlıca əlaməti erkən yaşlarda boy qısalığı və sonrakı yaşlarda cinsi inkişafın başlamaması ilə xarakterizə olunan genetik pozuntulardır. Böyümə hormonu çatışmazlığı hər 3500-dən bir uşaqda görülür. Xəstəliyin əsas əlaməti boy qısalığı və ya böyümədə dayanmadır. Hipotireozun rast gəlmə tezliyi isə 3500-də birdir. Problemin anadangəlmə növü müalicə olunmadıqda boy qısalığından əlavə, əqli inkişafda da geriləməyə səbəb ola bilər.

Onu da qeyd edim ki, 50 santimetr olaraq dünyaya gələn sağlam körpənin boyu 3 aylığında təxminən 60 santimetr, 6 aylığında 67 santimetr, 9 aylığında 72 santimetr, 1 yaşında ikən isə 75 santimetr olmalıdır".

# Şəkərli diabet xəstələrinin psixoloji vəziyyəti və xəstəliklə mübarizə yolları müzakirə olunub

**◆ Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Terapevtik Klinikasında Ümumdünya Şəkərli Diabetə Qarşı Mübarizə Gününə həsr olunmuş tədbir keçirilib.**



Tədbiri giriş sözü ilə açan klinikanın direktorunun müalicə işləri üzrə müavini Adil Nuriyev bu xəstəliyin bütün dünyada geniş yayıldığını bildirib, diabetin insan orqanizminə vurduğu zərərlər barədə danışıb.



Professor Tamfira Əliyeva çıxış edərək şəkərli diabetin dünyada və Azərbaycanda epidemiologiyası, əsasən bu xəstəliyin ölkəmiz üzrə statistik göstəricilərini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

ATU-nun Tədris Terapevtik Klinikasının Endokrinologiya şöbəsinin müdiri Könül İsmayılova şəkərli diabet xəstəliyi olan şəxslərin psixoloji vəziyyəti və xəstəliklə mübarizə yolları barədə məlumat verib.

Sonra endokrinoloq, dosent Səbinə Məşədiyeva "Diabet Məktəbi"nin tarixindən danışıb və qeyd edib ki, bu məktəbin əsas məqsədi şəkərli diabet xəstələrini maarifləndirmək və onlara özlərinə düzgün qulluq etmə qaydalarını aşılamaqdan ibarətdir.

Tədbir iştirakçıların sualların cavablandırılması ilə davam etdirilib.

# ATU-da keçirilən IV Beynəlxalq Bakı Tibb Konqresinin fəalları

**◆ İki gün davam edən IV Beynəlxalq Tibbi Konqresdə universitetimizin tələbələri xüsusi fəallıq göstəriblər.**



Qeyd edək ki, konqresin koordinatorları Ramil Hüseynzadə, Orxan İsgəndərov və Nərgiz Müştaqzadədir. Onlara bu işdə Fidan Süleymanlı, Əzizə Quluzadə, Ülvi Ələşrəfov, Mixail Qəhrəmanov, Nərgiz Əliyeva, Qəndab Novruzlu, Gözəl Mirzəyeva dəstək verib. Qeydiyyat komandasında - Validə Nəsibli, Sevinc Namazova, Natavan Hüseynova, Xəyalə Musayeva, Nuranə Mənsimzadə, Sevinc Vəliyeva, Tamilla Qəhrəmanzadə, Elidə Məmmədli, Nurlana İbrahimli, Səlimə Rəhimova, PR komandasında - Türkay Kərimli, Leyla Quliyeva, Bəyim Hünbətova, Cavid Mustafazadə, texniki dəstək komandasında - Kamran Məmmədov, Rəhman Tahirli, Esmira Paşayeva, sosial proqram komandasında - Mehriban Sarıyeva, Kamilə Qaraisalı, Ağgül Məmmədzadə, Aidə Qasımova, Rafael Balabəyov çalışıb. Tədbirin fotoqraf və qrafik dizayneri Calal Məmmədovdur.

Tədbir iştirakçılarının çıxışlarını Rəşid Qaçabəyov və Emin Eyvazov sinxron tərcümə edib. Konqres Səmra Bağırlı və Sərxan Həsənlinin aparıcılığı ilə baş tutub. Musiqili proqramın təşkili ilə Nərmin Camal, Əziz Əhmədli və Fərhan Namazov məşğul olub. Təşkilati heyətə Elşən Nemətli, İlkin Quluzadə, Məhərrəm Alimli, Aygül Abdullayeva, Nərminə Həmzalı, Sona Məmmədzadə, Nərgiz Vəliyeva, Sevinc Babayeva, Balaxanım Məmmədova, Elmira Nəciyeva, Xəzanə Əzimzadə, Aysel Haqverdiyeva və Eltac Hümbətova daxildir.

**ATU-nun mətbuat xidməti**

# Pediatrlar üçün bölgələrdə təlimlər keçirilir

**◆ Prezident İlham Əliyevin 2014-cü il iyunun 13-də verdiyi Sərəncamı ilə təsdiq edilmiş “Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı”na əsasən Səhiyyə Nazirliyi və UNİCEF-in Azərbaycan nümayəndəliyi arasında 2016-2017-ci illər üçün imzalanmış Fəaliyyət Proqramına uyğun olaraq respublikanın bölgələrində körpə və erkən yaşlı uşaqların qidalanması və uşaq inkişafının monitorinqinə həsr olunmuş pediatrlar üçün təlimlərin keçirilməsinə başlanılıb.**

Quba şəhəri Perinatal Mərkəzində aparılan ilk təlimdə Quba, Qusar, Xaçmaz və Şabran rayonlarından olan 30 pediatr və nevroloq iştirak edib. “Körpə və erkən yaşlı uşaqların qidalanması” və ”İnkişafın dəstəklənməsi və izlənməsi üzrə Beynəlxalq Rəhbərliyin istifadəsinə dair” mövzulara həsr edilən təlimdə həkimlərə uşaqların düzgün qidalanması və inkişaf çətinliklərinin erkən aşkarlanmasına dair yeni yanaşmalar həm mühazirə, həm də praktiki məşğələlər vasitəsi ilə təqdim olunub.

İlin axırınadək həmin təlimlərin Şəki və Lənkəran rayonlarında da keçirilməsi nəzərdə tutulub.



Təlimlərin keçirilməsinə Ə.Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutu, Tibb Universiteti və Bakı Uşaq Bərpa Müalicə Mərkəzinin mütəxəssisləri cəlb olunublar.

*Yubiley*

# Ömrün 75-ci baharında

**Elmin dolanbac yolları ilə onun uzaq hədəflərinə doğru gücünü səfərbər edərək ürəklərə, zəkalara işıq saçanlardan biri də tibb üzrə elmlər doktoru, professor, respublikanın əməkdar müəllimi Mübariz Qasım oğlu Allahverdiyevdir.**



Bu günlərdə ömrünün 75-ci baharı qeyd olunacaq M.Allahverdiyev 19 noyabr 1942-ci ildə Dağlıq Qarabağ Muxtar Vilayətinin Xocalı kəndində dünyaya göz açıb. 1960-cı ildə Xankəndindəki Nizami adına 4 saylı orta məktəbi, 1966-cı ildə isə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu bitirib. O, iki il Dağlıq Qarabağın Naxçıvanik kəndində və Xankəndində işlədikdən sonra əmək fəaliyyətini 1969-cu ilə qədər keçmiş Türkmənistan SSR-in Daşhovuz vilayətinin Köhnə Ürgənc rayonunda davam etdirib.

M.Allahverdiyev 1969-cu ilin mart ayından etibarən ATİ-nin (indiki ATU) İnsan anatomiyası kafedrasına müəllim vəzifəsinə qəbul olunaraq əvvəlcə assistent və baş müəllim, 1986-2010-cu illərdə kafedranın dosenti vəzifələrində çalışıb, hazırda kafedranın professoru kimi elmi-pedaqoji fəaliyyətini davam etdirir. 1984-cü ildə professor G.Hacıyevin rəhbərliyi altında Tbilisidə “Budun dəri sinirlərinin makromikroskopik anatomiyası və mieloarxitektonikası” mövzusunda namizədlik, 2007-ci ildə isə ə.e.x., professor, Rusiya Elmlər Akademiyasının akademiki V.Şadlinskinin rəhbərliyi altında “Postnatal ontogenezdə insanın qaraciyərxarici öd yollarının vəzi və limfoid aparatının struktur-funksional səciyyəsi və morfogenezinin qanunauyğunluqları” mövzusunda doktorluq dissertasiyası müdafiə edib.

Professor M.Allahverdiyev ayrı-ayrı dövrlərdə kafedranın tədris hissə müdiri (1972-1990), Azərbaycan Anatom, Histoloq və Embrioloqlar Cəmiyyətinin Elmi katibi (1975-1995), I müalicə-profilaktika fakültəsinin dekan müavini və namizədlik dissertasiyası üzrə İxtisaslaşdırılmış müdafiə şurasının elmi katibi (1990-1993), Azərbaycan Tibb Universitetinin Elmi katibi (1992-2000), ATU-nun internatura şöbəsinin müdiri (2001-2006), pediatriya fakültəsinin dekan müavini (2006-2007) vəzifələrini müvəfəqiyyətlə yerinə yetirib.

Mübariz müəllim hazırda kaferanın professoru vəzifəsini yerinə yetirməklə yanaşı ATU-nun nəzdində fəaliyyət göstərən dissertasiya şurasının elmi katibi vəzifəsini də müvəffəqiyyətlə yerinə yetirir. M.Allahverdiyev 1975-1985-ci illərdə Anatom, Histoloq və Embrioloqların IX, X, XI Ümumittifaq qurultaylarına, Zaqafqaziya morfoloqlarının I, II, III, IV, V konfranslarına, 2004-cü ildə Kazanda keçirilən Beynəlxalq konqresə nümayəndə seçilərək elmi-tədqiqat işlərinin nəticələrinə dair tezis və məqalələr çap etdirmişdir. Professor M.Allahverdiyev 178 elmi və 55 elmi-kütləvi məqalənin, 12 dərslik və dərs vəsaitinin, 3 monoqrafiya və 2 səmərələşdirici təklifin, həmmüəlifləri birgə yazılmış Anatomiya muzeyi haqqında kitabların, görkəmli alimlər haqqında 3 biblioqrafik məlumat kitabçasının müəllifidir.

Unutmaq olmaz ki, alimlər zamanla yox, elmlə, yeniliklərlə və eini zamanda araşdırmalarla yaşayırlar. Tibb üzrə elmlər doktoru, professor, respublikanın əməkdar müəllimi M.Allahverdiyev də məhz belələrindəndir. O, 50 ilə yaxındır ki, I və II kurslarda praktik məşğələlər və mühazirələr apararaq, özünün elmi-pedaqoji, eləcə də yüksək insani keyfiyyətləri ilə həm kollektivin, həm də tələbələrin dərin hörmətini qazana bilib. 1992-ci ildən indiyə kimi ATU-nun Böyük Elmi şurasının, Qarabağ Müharibə Veteranları Birliyinin, həmçinin Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür, Səhiyyə Nazirliyinin “Fəxri fərmanlarına” (1999 və 2009), “Sosializm yarışının qalibi” döş nişanına (1977), “Qızıl Qələm” mükafatına (2009) layiq görülüb. Professor M.Allahverdiyevə uzunmüddətli elmi-pedqoji və ictimai fəaliyyətinin yüksək nəticələrinə görə 2010-cu ildə Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin Sərəncamı ilə “Əməkdar müəllim” fəxri adı verilib.

ATU-nun İnsan anatomiyası kafedrasının professoru, respublikanın əməkdar müəllimi Mübariz Qasım oğlu Allahverdiyev ömrünün ən gözəl çağlarını da tələbə-müəllim kollektivi arasında keçirərək gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olur. Kafedranın kollektivi Mübariz müəllimi anadan olmasının 75-ci ildönümü münasibətilə səmimi qəlbdən təbrik edir, ona uzun ömür, cansağlığı arzulayaraq hamılıqla “Mübariz müəllim, həmişə ruhunuz sağlam, zəkanız aydın olsun” - deyir!

**İnsan anatomiyası kafedrasinin kollektivi**

# İdmançılarımız medal qazanıb

**◆ Noyabrın 4-də Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə Hövsan Olimpiya İdman Kompleksində kyokuşin karate üzrə 150 tələbənin iştirakı ilə Bakı Çempionatı keçirilib.**



Çempionatda məşqçi-müəllim, Azərbaycan Respublikasının Əməkdar Məşqçisi, beynəlxalq dərəcəli hakim, Qələndər Aslanovun rəhbərliyi altında ATU-nun idman klubunun tələbələri də fəal iştirak edib.

İçtirakçı tələbələrdən üç nəfər final mərhələsinə yüksəlib. Finalçılardan Hərbi tibb fakültəsinin V kurs tələbəsi Namiq Seyfəddinli 75 kq çəki dərəcəsində fərqlənərək I yerə çıxıb. Müalicə-prolaktika fakültəsinin tələbəsi Kamran Sadıqov və Hərbi tibb fakültəsinin II kus tələbəsi Fərman Süleymanov final döyüşündə məğlub olaraq II yerə cıxıblar. Cempionatın sonunda qaliblər fəxri fərman və medallarla təltif olunublar.

Qələndər Aslanovun sözlərinə görə, idmançıları qarşıda Respublika Çempionatı gözləyir. Kyokuşin karate idman klubunda yeganə idman növüdür ki, qaliblərə dərəcə verilir. Dərəcələrə yalnız normativlərini ödəyən tələbələr layiq görülür.



Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə Hövsan Olimpiya İdman Kompleksində sərbəst və yunan-roma güləşi üzrə böyüklər arasında Bakı şəhər çempionatı keçirilib.

Yarışda sərbəst güləş üzrə Neftçi (İKİB), DİN İC, 9 № UGGİM, MOİK, Lokomotiv İSM, Zenit İC, Cavanşir (İK)-ni təmsil edən 73 idmançı mübarizə aparıb.

Yunan-roma güləşi üzrə Neftçi İKİB, ROİL, DİN İC, Lokomotiv İC MOİK, Məhsul İC, Spartak İC, Hovsan OİK, Pəhləvan İK, Fərasət İSM, Gömrükçü İSM, Gənclik İK, Cəngi GK-ni təmsil edən 111 idmançı iştirak edib.

Bakı şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən müvafiq dərəcəli diplomlar və xatirə hədiyyələri ilə təltif olunublar.

Bu yarışda Azərbaycan Tibb Universitetinin mühafizə şöbəsinin mühafizəçisi, Zenit İdman Cəmiyyətini təmsil edən Mahir Əliyev (məşqçi Fəxrəddin Nuriyev) sərbəst güləş üzrə 125 kq çəki dərəcəsində II, yunan-roma güləşi üzrə 130 kq çəki dərəcəsində III yerə layiq görülüb.

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

# KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

**Kafedraların professorları:**

- III daxili xəstəliklər kafedrası - 1 yer
- I cərrahi xəstəliklər kafedrası - 1 yer (0,25 vahid)

**Kafedraların dosentləri:**

- I mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- Oftalmologiya kafedrası - 1 yer (0,5 vahid)
- Klinik farmakologiya kafedrası - 1 yer
- Allerqologiya və immunologiya kafedrası - 1 yer
- Travmatologiya və ortopediya kafedrası - 1 yer
- Patoloji anatomiya kafedrası - 1 yer
- Normal fiziologiya kafedrası - 1 yer
- Azərbaycan dili kafedrası - 1 yer
- I daxili xəstəliklər və reanimatologiya kafedrası - 1 yer (0,25 vahid)
- Xarici dillər kafedrası - 1 yer

**Kafedraların assistentləri:**

- I mamalıq və ginekologiya kafedrası - 4 yer (0,5 vahid)
- Oftalmologiya kafedrası - 1 yer (0,75 vahid)
- Klinik farmakologiya kafedrası - 1 yer (0,5 vahid)
- İnsan anatomiyası kafedrası - 1 yer
- Məhkəmə təbabəti kafedrası - 1 yer
- Terapevtik və pediatrik propedevtika kafedrası - 1 yer
- Tibbi fizika və informatika kafedrası - 1 yer (0,5 vahid)
- Patoloji fiziologiya kafedrası - 1 yer
- Patoloji anatomiya kafedrası - 1 yer (0,5 vahid)
- Bioloji kimya kafedrası - 1 yer
- Ağız və üz çənə cərrahiyyəsi kafedrası - 1 yer (0,75 vahid)
- Uşaq stomatologiyası kafedrası - 1 yer (0,5 vahid)
- Ümumi və toksikoloji kimya kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların baş müəllimləri:**

- Patoloji fiziologiya kafedrası - 1yer
- Bioloji kimya kafedrası - 1 yer (0,5 vahid)
- Xarici dillər kafedrası - 1 yer
- Operativ cərrahlıq və topoqrafik anatomiya kafedrası - 1 yer
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası -1 yer (0,5 vahid)
- Tibbi-biologiya və genetika kafedrası -1 yer (0,5 vahid)
- Farmakoqnoziya və botanika kafedrası -1 yer (0,5 vahid)
- Mikrobiologiya və immunologiya kafedrası -1 yer (0,5 vahid)
- Histologiya, embriologiya və sitologiya kafedrası - 1 yer

**Kafedranın müəllimi:**

- Xarici dillər kafedrası - 3 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**
**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14**
**Telefon: 597-10-08, 597-41-69, 597-43-23**

## DİQQƏT!

**Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə!**

**2017-2018-ci tədris ilindən başlayaraq, kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə (xüsusi formada)
2. Kadlar uçotunun şəxsi vərəqəsi
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və qrup həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır. Kafedra müdiri vəzifəsinə iddiaçılara xasiyyətnaməni fakültənin dekanı və həmkarlar təşkilatının sədri imzalamalıdır.
4. Xüsusi formada tərtib edilmiş tərcümeyi-halın çap forması və elektron variantı. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifədə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti, ünvan və telefonu göstərilməlidir.
5. ATU-nun klinika və laboratoriyalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı (xüsusi formada) və surətləri. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski.
8. Şəxsiyyət vəsiqəsinin surəti

**Qeyd:** ***ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.***

# 14 noyabr Ümumdünya şəkərli diabetlə mübarizə günüdür

**Dünyada hər 10 saniyədən bir iki adama "şəkərli diabet" diaqnozu qoyulur, bir adam isə şəkərli diabetin fəsadlarından dünyasını dəyişir.**

Dünya ölkələrinin çoxunda ürək-damar və onkoloji xəstəliklərdən sonra bilavasitə ölüm səbəbləri arasında üçüncü yeri şəkərli diabet tutur. Hazırda dünyada şəkərli diabetə tutulmuş təxminən 422 milyon xəstə var. Bu xəstəlik vaxtında müalicə olunmayanda, çox ciddi fəsadlar törədir. Sürətlə inkişaf edən xəstəlik sosial-tibbi problemlər yaradır, ölkələrin iqtisadiyyatlarına və ailələrin maddi durumuna təsir göstərir. Dünya Səhiyyə Təşkilatının (DST) proqnozlarına görə, diabetdən əziyyət çəkənlərin sayı 2040-cı ilə qədər artaraq 642 milyon nəfərə çata bilər. Statistik məlumatlar göstərir ki, təəssüf ki, dünya ölkələrinin çoxunda olduğu kimi, Azərbaycanda da bu xəstəliyə tutulanların sayının artması müşahidə olunur. Belə ki, 2017-ci ilin sentyabr ayının əvvəli üçün respublikanın müalicə-profilaktika müəssisələrində qeydiyyata alınan diabet xəstələrinin sayı 241. 223 nəfər təşkil edib ki, onların da 73.367 nəfəri Bakı şəhəri sakinidir. II tip şəkərli diabetdən 29.830 adam (1683 nəfəri Bakı sakini), I tip diabetdən 211.493 adam (71.684 nəfəri Bakı sakini) əziyyət çəkir. Bundan əlavə, Azərbaycanda diabet xəstəsi olan 1543 uşaq rəsmi olaraq qeydə alınıb ki,



onların da 556 nəfəri paytaxt sakinidir. II tip şəkərli diabetdən 21 uşaq (2-si Bakıda), I tip diabetdən 1522 uşaq (554-ü Bakıda) əziyyət çəkir.

Qeyd edək ki, ömür müddətinin azalmasının səbəbi olan bu xəstəliyə cəmiyyətin diqqətini cəlb etmək üçünə DST-nin və Beynəlxalq Diabet Federasiyasının tövsiyələri ilə 1991-ci ildən 14 noyabr Ümumdünya Diabet Günü kimi qeyd edilir. 2006-cı il dekabrın 20-də BMT Baş Məclisi tərəfindən qəbul edilmiş qətnaməyə görə, Ümumdünya Diabet Günü 2007-ci ildən BMT-nin rəsmi günü elan edilib. 14 noyabr Frederik Bantinqin doğum günüdür. Bu alim 1922-ci ildə Çarlz Best ilə birlikdə insulini kəşf edərək, bu xəstəlikdən əziyyət çəkənlərin müalicəsində yeni dövr açıb. Şəkərli diabetə qarşı ümumdünya mübarizə gününün əsas məqsədi bu xəstəlik, onu törədən səbəblər və əlamətləri barədə əhalini məlumatlandırmaqdır.

## Etibarsız sayılır

Hərbi tibb fakültəsinin II kurs, $1126^a$ qrup tələbəsi Babayev Elşən Elşad oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Hərbi tibb fakültəsinin VI kurs, $1141^a$ qrup tələbəsi Tağıyev Zahid Aydın oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin IV kurs, $43^b$ qrup tələbəsi Pənahov Kamran Elçin oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin II kurs, $802^a$ qrup tələbəsi Nəcəfova Aytac Xəyyam qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin I kurs, 117-i1 qrup tələbəsi Sina Marghoubi Ebrahim oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin IV kurs, $47^a$ qrup tələbəsi Əlili Altay Akif oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, $9^a$ qrup tələbəsi İbrahim Demircan Ahmet oğlunun adına verilmiş tələbə bileti və qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin II kurs, $783^a$ qrup tələbəsi İbadov Sabit Fikrət oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin IV kurs, $47^c$ qrup tələbəsi Polad Sıddık Nurullahın adına verilmiş tələbə bileti və qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Daşınmaz Əmlakın Dövlət Reyesteri Xidməti (DƏDRX) tərəfindən Məcidov Çingiz Əhməd oğlunun adına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır (Bakı şəhəri, Sabunçu rayonu, Vişnyovka -1 bağ sahəsi, 847 saylı bağ evi).

## Allah rəhmət eləsin!

III daxili xəstəliklər, ailə təbabəti və xarici dillər kafedrasının əməkdaşları II müalicə-profilaktika fakültəsinin dekan müavini, dosent Zabit Məmmədova bacısı

**Məlahət xanımın**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əczaçılığın texnologiyası və idarəçiliyi kafedrasının kollektivi iş yoldaşları Nizami Naibova qardaşı

**Aydın Naibovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

İctimai fənlər və xarici dillər kafedrasının əməkdaşları ATU- nun xarici tələbələrlə iş üzrə dekan müavini Nigar Ələkbərovaya atası

**Rafiq müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Xarici dillər kafedrasının əməkdaşları kafedranın dosenti Gülnarə Rəhimovaya anası

**Leyla xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Xarici dillər kafedrasının əməkdaşları kafedranın baş müəllimi Məlahət Gərayzadəyə anası

**Mənsumə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Xarici dillər kafedrasının əməkdaşları dermatovenorologiya kafedrasının müdiri, professor Zülfiqar Fərəcova atası

**Həsən müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İctimai fənlər kafedrasının əməkdaşları kafedranın baş müəllimi Bəsti Qasımovaya anası

**Tuba xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
**ELDAR İSMAYIL**

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - $98^c$**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tabibqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 1800